# Perkutan koronar müdaxilə olmuş xəstələrin covıd-19 pandemiyası zamanı klinik nəticələrinin təhlili

**İşin məqsədi:** Bu çalışma COVID-19 pandemiyasının daha əvvəl perkutan koronar müdaxilə (PKM) olunmuş xəstələrə necə təsir etdiyini araşdırmaq məqsədi daşıyır. Çalışmada ölüm, hospitalizasiya, təkrar revaskulyarizasiya kimi klinik nəticələr və yoluxmanın bu nəticələrə təsiri araşdırılmışdır.

**Material və metodlar:** Çalışmaya COVİD-19 infeksiyasına yoluxan 448 və yoluxmayan 810 xəstənin nəticələri daxil edilmişdir. 1258 PKM xəstəsinin demoqrafik məlumatları, yanaşı xəstəlikləri və klinik nəticələri retrospektiv təhlil edilmişdir.

**Nəticələr:** İlkin demoqrafik xüsusiyyətlərin təhlilində COVID-19 müsbət və mənfi kohortlar arasında siqaret çəkmə vərdişində (33,7% -ə qarşı 43,7%, p = 0,001) və diabetin yayılmasında (40,2% -ə qarşı 32,3%, p = 0,005) əhəmiyyətli fərqlər aşkar edildi. Klinik nəticələr kontrol koronar angioqrafiyası (KAQ), təkrar revaskulyarizasiya və bütün səbəblərdən ölüm hallarında əhəmiyyətli fərq göstərməmişdir. Bununla belə, COVID-19 pozitiv xəstə qrupunda hospitalizasiyanın əhəmiyyətli dərəcədə yüksək nisbətləri (18,8%-ə qarşı 0%, p <0,001) və əksəriyyəti COVID-19 səbəbli olmaqla ölüm halları (75%, p< 0,001) müşahidə edildi.

**Yekun:** Bu tədqiqat COVID-19 pandemiyası zamanı PKM xəstələrinin klinik gedişi haqqında daha aydın təsəvvür yaradır. Hospitalizasiyanın və COVID-19 ilə bağlı ölümlərin yüksək nisbətləri bu xəstə populyasiyasına daha ciddi nəzarət olunmasını vurğulayır.

**[1]Oqtay Musayev,**

**[2]Rafael Daşdəmirov,**

**[1]Firdovsi İbrahimov,**

**[1]Kənan Əhmədov,**

**[1]Məryəm Qafarova,**

**[1]Sona Qasımzadə,**

**[1]Nərgiz Müştaqzadə**

[1]Mərkəzi Klinik Xəstəxana, Kardiologiya şöbəsi, Bakı

[2]Elmi Tədqiqat Kardiologiya İnstitutu, Bakı